

Azərbaycan Respublikasının Mülki Hava Limanlarında Avtonəqliyyat və Mexaniki Vasitələrinin Hərəkətinin Təşkili üzrə

TƏLƏBLƏR

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № G-AGA-008

Nəşr tarixi: 17 OKTYABR 2019

Nəşr № 01, Rev.01 03.MAR.2020

Bakı

0. SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1. RAZILAŞDIRMA VƏ TƏSDIQ EDILMƏ VƏRƏQI

Hazırlanıb:	Fikrət Axundov
Vəzifə:	Aerodrom istismarçılarına nəzarət İdarəsinin rəisi
İmza:	

Yoxlanılıb:	Zöhrab Hasilov
Vəzifə:	Keyfiyyətə nəzarət və normayaratma İdarəsinin rəisi
İmza:	

Razılaşdırılıb:	Hacıağa Əliyev
Vəzifə:	DMAA-nın Direktorunun müavini
İmza:	

Təsdiq olunub:	Arif Ə. Məmmədov
Vəzifə:	DMAA-nın Direktoru
İmza:	

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2. MÜNDƏRICAT

0. SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1. Razılaşdırma və Təsdiq edilmə Vərəqi 1

0.2. Mündəricat 3

0.3. Səhifələrin Siyahısı 5

0.4. Sənədin Yayılma Siyahısı 7

0.5. Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 9

0.6. Sənədə Nəzarət və İdarəedilmə 10

0.7. Terminlər və Tərifiər 11

0.8. Qısaltmalar 12

1. ÜMUMİ MÜDDƏALAR 1

2. AERODROMDA HAVA GƏMİLƏRİNƏ XİDMƏT EDİLƏRKƏN VƏ AERODROM İSTİSMAR VƏZİYYƏTİNDƏ SAXLANARKƏN AERODROMDA NƏQLİYYAT VASİTƏLƏRİNİN HƏRƏKƏTİNİN TƏŞKİLİ 1

2.1. Aerodromda Nəqliyyat Vasitələrinin Hərəkətinin Təşkili üzrə Ümumi Tələblər 1

2.2. Hava Gəmilərinin Yedəklənməsinin Təşkili 4

2.3. Texniki və Kommersiya Xidmətləri Göstərilərkən XAN və MV-nin Hava Gəmilərinə Yaxınlaşması (Uzaqlaşması) İşlərinin Təşkili və Qaydaları 4

2.4. Aerodromlar İstismarda Saxlanarkən XAN və MV İşinin və Hərəkət Təhlükəsizliyinin Təşkili. 6

2.5. Uçuş-enmə Zolağını Keçmə Qaydaları 8

2.6. Sürücülərin, habelə Xüsusi Maşınların Hava Gəmilərinə Yaxınlaşmasına Rəhbərlik Edən Şəxslərin Aerodromda İşə Buraxılması 8

2.7. Xüsusi Avtonəqliyyatın Aerodroma Buraxılması 10

2.8. Kənar Təşkilatlara məxsus XAN və MV-nin Aerodroma Buraxılması və İşinin Təşkili 11

2.9. Aerodromda XAN və MV Dayanacaqlarının Təşkili 12

3. AERODROMDA XAN və MV-nin TƏHLÜKƏSİZLİYİNİ TƏMİN ETMƏK SAHƏSİNDƏ HAVA LİMANI İŞÇİLƏRİNİN VƏZİFƏLƏRİ VƏ MƏSULİYYƏTİ 1

3.1. Hava Limanının Rəhbəri 1

3.2. Hava Limanı Rəhbərinin Müavini və ya Baş Mühəndis 1

3.3. Sərnişin və Yükdaşımaların Təşkili üzrə Xidmətlərin Rəhbəri 1

3.4. Sərnişin və Yükdaşımaların Təşkili Xidmətlərinin İşçiləri 0

3.5. Hava Limanlarında HG-lərinə texniki xidmət göstərən müəssisənin XAN və MV istismarı üzrə rəhbəri: 0

3.6. Hava Gəmilərinə Texniki Xidmət edən Heyətin Vəzifələri 0

3.7. Hava Limanının XAN və MV Xidmətinin Rəisi....1
3.8. Hava Limanının Aerodrom Təminatı üzrə Rəhbəri....1
3.9. Yanacaq-Sürtkü Materialları İdarəsinin XAN və MV üzrə Rəhbəri....2
3.10. Hava Limanı Tibbi Sanitar Bölməsinin Rəisi....2
3.11. Perronda Təhlükəsizliyə Nəzarət üzrə Mühəndis....2
3.12. Hava Limanında Çalışan Nəqliyyat Vasitəsinin Sürücüsü....3
ƏLAVƏ 1:....1
ƏLAVƏ 2:....1
ƏLAVƏ 3:....2
ƏLAVƏ 4:....4
ƏLAVƏ 5:....6
ƏLAVƏ 6:....8
ƏLAVƏ 7:....10
ƏLAVƏ 8:....12
ƏLAVƏ 9: XÜSUSİ MAŞINLARIN HAVA GƏMİLƏRINƏ YAXINLAŞMASINA RƏHBƏRLİK ÜÇÜN SİQNALLAR....13
ƏLAVƏ 10: HAVA GƏMİLƏRİNƏ XİDMƏT ZAMANI XAN VƏ MV-nİN YAXINLAŞMASI, UZAQLAŞMASI VƏ MANEVRETMƏ SXEMLƏRİ....19
ƏLAVƏ 11: İCAO ƏLİFBASI....49
ƏLAVƏ 12: XAN və MV-NİN NİŞANLANMASI VƏ İŞİQLANDIRILMASI....50
ƏLAVƏ 13: BƏZİ HAVA GƏMİLƏRİN XÜSUSİYYƏTLƏRİ....51
ƏLAVƏ 14: HAVA GƏMİLƏRİNİN, XÜSUSİ NƏQLİYYATIN VƏ MEXANİKİ VASİTƏLƏRİNİN AERODROMDA YERLƏŞDİRİLMƏSİ VƏ HƏRƏKƏTİNİN TƏŞKİLİ SXEMİNİN NÜMUNƏSİ....55

0.3. SƏHIFƏLƏRIN SIYAHISI

	Hissə 0	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	03.MAR.2020	01
2	17.OKT.2019	00
3	17.OKT.2019	00
4	03.MAR.2020	01
5	03.MAR.2020	01
6	03.MAR.2020	01
7	17.OKT.2019	00
8	17.OKT.2019	00
9	03.MAR.2020	01
10	03.MAR.2020	01
11	17.OKT.2019	00
12	03.MAR.2020	01
	Hissə 1	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	03.MAR.2020	01
2	17.OKT.2019	00
	Hissə 2	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	03.MAR.2020	01
2	17.OKT.2019	00
3	17.OKT.2019	00
4	17.OKT.2019	00
5	17.OKT.2019	00
6	17.OKT.2019	00
7	17.OKT.2019	00
8	17.OKT.2019	00
9	17.OKT.2019	00
10	17.OKT.2019	00
11	17.OKT.2019	00
12	17.OKT.2019	00
	Hissə 3	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	03.MAR.2020	01
2	17.OKT.2019	00
3	17.OKT.2019	00
4	17.OKT.2019	00
5	17.OKT.2019	00
6	17.OKT.2019	00
	Əlavələr	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	17.OKT.2019	00
2	17.OKT.2019	00

	Əlavələr	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
3	17.OKT.2019	00
4	17.OKT.2019	00
5	17.OKT.2019	00
6	17.OKT.2019	00
7	17.OKT.2019	00
8	17.OKT.2019	00
9	03.MAR.2020	01
10	17.OKT.2019	00
11	03.MAR.2020	01
12	17.OKT.2019	00
13	17.OKT.2019	00
14	17.OKT.2019	00
15	17.OKT.2019	00
16	17.OKT.2019	00
17	17.OKT.2019	00
18	17.OKT.2019	00
19	17.OKT.2019	00
20	17.OKT.2019	00
21	17.OKT.2019	00
22	17.OKT.2019	00
23	17.OKT.2019	00
24	17.OKT.2019	00
25	17.OKT.2019	00
26	17.OKT.2019	00
27	17.OKT.2019	00
28	17.OKT.2019	00
29	17.OKT.2019	00
30	17.OKT.2019	00
31	17.OKT.2019	00
32	17.OKT.2019	00
33	17.OKT.2019	00
34	17.OKT.2019	00
35	17.OKT.2019	00
36	17.OKT.2019	00
37	17.OKT.2019	00
38	17.OKT.2019	00
39	17.OKT.2019	00
40	17.OKT.2019	00
41	17.OKT.2019	00
42	17.OKT.2019	00
43	17.OKT.2019	00
44	17.OKT.2019	00
45	17.OKT.2019	00
46	17.OKT.2019	00
47	17.OKT.2019	00
48	17.OKT.2019	00

Əlavələr		
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
49	17.OKT.2019	00
50	17.OKT.2019	00
51	17.OKT.2019	00
52	17.OKT.2019	00
53	17.OKT.2019	00
54	17.OKT.2019	00
55	03.MAR.2020	01
56	17.OKT.2019	00

0.4. SƏNƏDIN YAYILMA SIYAHISI

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Məsuliyyət şəxsin adı	Vəzifə
Əsli	**(S)**	Keyfiyyətə Nəzarət və Normayaratma İdarəsi	Zöhrab Hasilov	Rəis
1	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma idarəsi	DMAA-nın kitabxanası/ İntranet	

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya yuxarıda qeyd olunmamış nüsxələr "Nəzarət Olunmayan" sayılır.*

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.5. DÜZƏLIŞ VƏ DƏYIŞIKLIKLƏRIN QEYDIYYATI

Nəşr/Reviziya №	Nəşr/ Reviziya tarixi	Daxil edilib	Paraqraf/ Səhifə	Qüvvəyə minmə tarixi
Nəşr №01	17.OKT.2019	KNvəNYİ	Hamısı	17.OKT.2019
Rev. № 01	03.MAR.2020	KNvəNYİ		03.MAR.2020

Nəşr: *- Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.*

Düzəliş: *- Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmiş dəyişiklik. Mətndə dəyişikliklər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin aktual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.*

0.6. SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDILMƏ

Bu sənəd A4 ölçüsü kağız vərəqələrdə çap edilmişdir. Elektron (PDF) fayllar isə icazə verilməmiş dəyişikliklərindən qorunmaq məqsədi ilə parolla bloklanılıb.

Bu sənəd müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Bütün müvafiq işçi heyəti bütün düzəlişləri ilə tanış olmalıdır.

Bu sənəd "Sənədlərə nəzarət" prosedurun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

0.7. TERMINLƏR VƏ TƏRIFLƏR

Aerodrom — Hava gəmilərinin enməsi, qalxması və yerdə hərəkəti üçün tam və ya qismən nəzərdə tutulan, müvafiq bina, qurğu və avadanlığı olan torpaq və ya su səthinin müəyyən sahəsi;

Aviasiya — Hava məkanından insanın hava gəmisi vasitəsilə istifadə etməsinə və bunun üçün lazımi şəraitin yaradılmasına yönəldilən fəaliyyət və təsisatlar məcmusu;

Hava gəmisi — Hava ilə qarşılıqlı təsir hesabına atmosferdə qalan (yer və su səthindən əks olunan hava ilə qarşılıqlı təsir istisna olmaqla) hər hansı aparat;

Hava limanı — Hava gəmilərinin qəbulu və yola salınması, hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi;

Hərəkət sahəsi (Movement area) — Aerodromun hava gəmisinin havaya qalxması, yerə enməsi və yerdə sürülməsi üçün istifadə edilən, manevr sahəsi ilə perronun daxil olduğu hissəsi.

Manevr sahəsi (Manoeuvring area) — Perron istisna olmaqla, aerodromun hava gəmisinin havaya qalxması, yerə enməsi və yerdə hərəkəti üçün nəzərdə tutulmuş hissəsi.

Uçuşların Təhlükəsizliyi — Aviasiya qəzaları və insidentləri baş vermədən, insanın həyatına, sağlamlığına və əmlakına zərər vurulmadan və bütövlükdə hər hansı narahatçılığa yol verilmədən uçuşların həyata keçirilməsi;

Uçuş sahəsi — Uçuş zolağları, sürmə yolları, perronlar, dayanacaqlar və xüsusi təyinatlı sahələri olan aerodrom hissəsi.

Uçuş-zolağı — Uçuş-enmə zolağı ilə tormozlama üçün son zolağı daxil edən (əgər bu zolaq nəzərdə tutulubsa) və aşağıda qeyd edilənlər üçün nəzərdə tutulan müəyyən ərazi:

a) uçuş-enmə zolağının sərhədləri xaricinə çıxan hava gəmisinin zədələnməsi riskinin azaldılması, və

b) bu zolağın üzərindən uçan hava gəmilərinin havaya qalxdıqları və yerə endikləri zamanı təhlükəsizliyinin qorunması.

0.8. QISALTMALAR

ATM	Aviasiya Texniki Mərkəzi
AUR	Aerodromda Uçuş Rəhbəri
DMAA	Dövlət Mülki Aviasiya Agentliyi
İCAO	Beynəlxalq Mülki Aviasiya Təşkilatı
HG	Hava Gəmisi
MA	Mülki Aviasiya
MAX	Mühəndis-Aviasiya Xidməti
SY	Sürmə Yolu
UEZ	Uçuş-Enmə zolağı
UEİTT	Uçuşların Elektrik-İşıq Texnikası təminatı
XAN və MV	Xüsusi avtonəqliyyat və Mexaniki vasitələri
XNX	Xüsusi Nəqliyyat Xidməti
Yİİ	Yüksək Intensivlik İşıqları
YSM	Yanacaq-Sürtkü Materialları

1. ÜMUMİ MÜDDƏALAR

1.1 Xüsusi Avtonəqliyyat və Mexaniki Vasitələrinin hərəkətinin təşkili üzrə Tələblər Azərbaycan Respublikasının mülki hava limanlarında avtonəqliyyat və Mexaniki vasitələrinin hərəkətinin təşkili qaydalarını, habelə xüsusi avtonəqliyyatın hava gəmilərini zədələməsinə yol verilməməsinə yönəldilmiş tədbirləri müəyyən edir.

1.2 Aerodrom istismarçıları Xüsusi Avtonəqliyyat və Mexaniki Vasitələrinin hərəkətinin təşkili üzrə Tələbləri yerinə yetirilməsinə görə məsuliyət daşıyır.

1.3 Hava Limanının nəzarətedici orqanlarının vəzifəli şəxsləri aerodromlarda nəqliyyat vasitələrinin təşkilinə, hava limanı xidmətinin şəxsi heyətinin və kənar təşkilatların aerodromda işə buraxılmasına nəzarəti həyata keçirməyə borcludurlar.

1.4 Xüsusi Avtonəqliyyat və Mexaniki Vasitələrinin hərəkətinin təşkili üzrə Tələblərin yerinə yetirilməsi hava limanlarında (aviaşirkətlərin) avtonəqliyyat və Mexaniki vasitələrindən istifadəyə aidiyyəti olan işçiləri üçün məcburidir.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

2. AERODROMDA HAVA GƏMİLƏRİNƏ XİDMƏT EDİLƏRKƏN VƏ AERODROM İSTİSMAR VƏZİYYƏTİNDƏ SAXLANARKƏN AERODROMDA NƏQLİYYAT VASİTƏLƏRİNİN HƏRƏKƏTİNİN TƏŞKİLİ

2.1. AERODROMDA NƏQLIYYAT VASITƏLƏRININ HƏRƏKƏTININ TƏŞKILI ÜZRƏ ÜMUMI TƏLƏBLƏR

2.1.1. Xüsusi Avtonəqliyyat və Mexaniki Vasitələrinin hərəkətinin təşkili üzrə Tələblər (bundan sonra XAMVT) əsasında və yerli şərait nəzərə alınmaqla hər bir hava limanında aerodrom xidməti ilə hava hərəkəti xidməti və digər yerüstü xidmətlər arasında qarşılıqlı əlaqər üçün təlimat hazırlanaraq bu aidiyyatı xidmətlərlə razılaşdırılmalıdır və hava limanı rəhbəri tərəfindən təsdiq olunmalıdır. Hava gəmiləri də peronda və dayanacaqlarda həmin Təlimata uyğun yerləşdirilməlidir.

2.1.2. Hər bir hava limanında XAMVT-nin və aviaşirkətlərin xüsusi tələblərinə uyğun "Aerodromda hava gəmilərinin, XAN və MV-nin yerləşdirilməsi və hərəkətinin təşkili sxemi" və "Hava gəmilərinə xidmət zamanı XAN və MV-nin yaxınlaşması, uzaqlaşması və manevr etməsi sxemləri" (10-cu Əlavə) işlənib hazırlanmalıdır.

Bu sxemlər aidiyyatı bölmələrlə razılaşdırılır və müvafiq rəhbər tərəfindən təsdiq edilir. Həmin sxemlər aerodromda XAN və MV-dən istifadə edən sürücülər və hava limanı bölmələrinin heyəti tərəfindən öyrənilməlidir.

2.1.3. Sxemlərdə aşağıdakılar göstərilməlidir:

- Perronda hava gəmilərinin yerləşdirilməsi, sürmə yolları, yedəklənmə yolları;
- XAN və MV-nin hərəkət yolları və dayanacaq yerləri;
- XAN və MV-nin hərəkətinə qadağan edilmiş zonalar;
- Xidmət zamanı hava gəmilərinin tipinə uyğun olaraq ətrafında XAN və MV yerləşdirilməsi;
- hava gəmilərinə xidmət zonasında XAN və MV manevr etmə marşrutları;

2.1.4. Hava Limanında yerli şərait nəzərə alınmaqla "Uçuşları təmin edən xidmətlərin qarşılıqlı fəaliyyət texnologiyası" işlənib hazırlanmalıdır.

2.1.5. Hava Limanında XAN və MV yalnız texnikanın yerləşdirilməsi və hərəkətinin təşkili sxeminə uyğun işarələnmiş xüsusi yollarla hərəkət etməlidir. Nəqliyyat vasitələrinin HG-dən aralı saxlanılması və bir-birinə qarşı qəza şəraitinin yaranmaması üçün xüsusi yollar perronda işarələnməlidir. İşarələnmə G-AGA-007 "PERRONUN İŞARƏLƏNMƏSİ VƏ NİŞANLANMASI ÜZRƏ TƏLİMAT"-a uyğun aparılmalıdır.

2.1.6. Xidməti yolun hər zolağı həmin ərazidə istifadə edilən ən geniş avadanlıqların hərəkəti üçün minimal endə olmalıdır. Xidməti yolun istiqaməti və işarələnmənin ölçüləri milli yol qaydalarına uyğun olmalıdır.

Qeyd: *Xüsusi yolların işarələnməsi üçün G-AGA-007 "PERRONUN İŞARƏLƏNMƏSİ VƏ NİŞANLANMASI ÜZRƏ TƏLİMAT"-ın 3-cü bəndinə bax.*

2.1.7. XAN və MV-lərin hərəkət yolları dayanan HG-nin son nöqtələrindən azı 2 metr aralı olmalıdır.

2.1.8. XAN və MV-nin hərəkət yolları halqavari olmalıdır. Perron və dayanacaq yerləri məhdud ölçülü olduqda XAN və MV hərəkətinin təşkili üçün perrona və dayanacağlara bitişən ərazilərdə xüsusi yol örtükləri çəkilməlidir.

2.1.9. Hərəkətdə olan HG ilə yaxınlıqdakı hər hansı tikili, digər dayanacaq yerində olan hava gəmisi və hər hansı başqa obyekt və ya XAN və MV arasında minimum təhlükəsiz məsafələr cədvəldə göstərilən minimum məsafə ilə təmin olunmalıdır:

İCAO Kod hərfi	Təhlükəsiz məsafə (Clearance)
A	3 metr
B	3 metr
C	4.5 metr
D/E/F	7.5 metr

Kod hərfi D, E və ya F olan hallarda, bu qeyd edilən təhlükəsiz məsafələri dayanacağın burun hissəsindən (nose-in aircraft stand) aşağıdakı xüsusi şərtlər daxilində azaldıla bilər:

(a) hər hansı fiksasiya edilmiş sərnişin trapı (fixed passenger bridge) daxil olmaqla, aerovağzalla (terminal) hava gəmisinin ön hissəsi arasında; və

(b) dayanacağın istənilən hissəsində teleskopik trapla vizual birləşdirmə sisteminin köməyi ilə azimut üzrə yönləndirmə təmin edildikdə.

Qeyd 1: *Perronlarda xidməti yolların, eləcə də yerüstü avadanlıqların manevr etməsi və ya saxlanması üçün meydançaların tikilməsi ilə əlaqədar ICAO "Aerodromun Layihələndirilməsinə dair Təlimat"-ın (DOC 9157) ikinci hissəsinə bax).*

Qeyd 2: *Hava Gəmilərinin təsnifatına görə kod hərif və rəqəmləri Əlavə 13-də verilmişdir.*

Qeyd 3: *Minimum təhlükəsizlik məsafələri ilə əlaqədar ətraflı məlumat AAR-AGA-001 "Aerodrome Standards" sənədində verilmişdir.*

2.1.10. Hava gəmilərinin və XAN və MV-nin aerodromda yerləşdirilməsi və hərəkəti sxemi, XAN və MV-in hava gəmilərinə xidmət zamanı yaxınlaşması, uzaqlaşması və manevretmə sxemləri XAN və MV-nin dayanacaq yerlərində və hava limanının XAN və MV-nin istismarı ilə bağlı bölmələrində asılmalı və sürücü heyəti tərəfindən imzalanmaqla öyrənilməlidir.

2.1.11. Hava gəmilərinin yedəklənməsi və uçuş sahəsinin istismarı üzrə işlər istisna olmaqla hava gəmilərinin sürmə yolunda XAN və MV-nin hərəkəti qəti qadağandır.

2.1.12. XAN və MV uçuş zolağına və sürmə yollarına yalnız uçuş rəhbəri icazə verdikdən sonra və "Qüllə (TOWER)" dispetçeri ilə ikitərəfli əlaqə saxlayan işlərin aparılması üçün məsuliyyət daşıyan şəxsin müşayiəti ilə çıxa bilər.

2.1.13. XAN və MV aşağıdakı qaydada istismar edilməlidir:

(a) hərəkət sahəsində yalnız aerodromun dispetçer məntəqəsinin icazəsi ilə; və

(b) perronda yalnız müvafiq səlahiyyətli orqanın icazəsi ilə.

2.1.14. Aşağıdakı orqanlar tərəfindən başqa bir icazə nəzərdə tutulmazsa, XAN və MV-nin sürücüsü hərəkət sahəsində işarələr və nişanların bütün icbari tələblərinə əməl etməli və ya xüsusi ayrılmış müşayiətçi nəqliyyat vasitəsi ilə hərəkəti davam etdirməlidir.

(a) XAN və MV manevr sahəsində olduğu zaman aerodromun dispetçer məntəqəsi tərəfindən; və ya

(b) XAN və MV perronda olduğu zaman təyin olunmuş müvafiq səlahiyyətli orqan tərəfindən.

2.1.15. XAN və MV sürücüsü hərəkət sahəsində işıqların bütün icbari tələblərinə əməl etməlidir.

2.1.16. Uçuş zolağına və sürmə yoluna çıxan XAN qabarit və bərq vuran işıqlarla, radiostansiyalar və yedəkləmə qurğuları ilə təchiz olunmalıdır (Hava limanında daxili əlaqə üçün rabitə radiostansiya avadanlıqları və bərq vuran işıq ilə təchiz edilməli XAN və MV siyahısı Əlavə 8-də göstərilmişdir).

HG-nin enməsi (qalxması) haqqında verilən məlumatlar radiotezliyində radioməlumat mübadiləsinin eşidilməsi məqsədilə aerodromda işlərin aparılması üçün məsuliyyət daşıyan şəxsin avtonəqliyyatı əlavə radiostansiya ilə təmin edilməlidir.

2.1.17. Hava gəmilərinə xidmət üçün nəzərdə tutulan XAN və MV yanğınsöndürmə vasitələri və dayaq kötükləri ilə təmin olunmalıdır.

2.1.18. Yükvurma - yükboşaltma avtomobilləri, sərnişin trapları, yük avtomobilləri hava gəmisinin füzelyajına zərbəni azaldan amortizasiya qurğuları ilə də təchiz olunmalıdır.

2.1.19. MV işıq əksetdirici nişanlarla təmin olunmalıdır.

2.1.20. Sutkanın qaranlıq vaxtında və ya məhdud görünüş şəraitində görünüşü yaxşılaşdırmaq üçün XAN-a əksetdirici nişanların vurulması məqsədə uyğundur.

Qeyd: *XAN və MV-nin nişanlanması və işıqlandırılması üçün bax Əlavə 12-yə.*

2.1.21. Aerodromda xidmət göstərən xüsusi nəqliyyat vasitələrinin xarici səthi AAR-AGA-001-in tələblərinə uyğun olaraq boyanmalıdır.

2.1.22. Rabitə vasitələri və bərq vuran işıqları nasaz olan XAN uçuş zolağına, sürmə yollarına çıxması qadağandır.

2.1.23. XAN və MV sürücüləri sürmə yolunda yerləşən və ya yedəklənən hava gəmilərinə bütün hallarda yol verməlidir.

2.1.24. Hava gəmilərini yedəkləyən XAN və MV sürmə yolundakı hava gəmilərinə yol verməlidir.

2.1.25. Sürmə yollarını keçməzdən əvvəl sürücü yedəklənən və ya sürmə yolunda olan hava gəmisini buraxmaq üçün hava gəmisinin ən yaxın son nöqtəsindən 10 metrdən az olmayan məsafədə dayanmalıdır.

2.1.26. Qəza yerinə gedən qəza-nəqliyyat vasitəsinə bütün digər nəqliyyat vasitələri üstünlük verməlidir.

2.1.27. XAN və MV-nin HG və onu müşayət edən xüsusi avtonəqliyyatın arasından keçməsi qadağandır.

2.1.28. Perronda hərəkət edən nəqliyyat vasitələri digər nəqliyyat vasitələrinə yerli yol hərəkəti qaydalarına uyğun yol verməlidir.

2.1.29. Xidmət olunan hava gəmisinə XAN və MV yaxınlaşmasının, ondan uzaqlaşmasının və xidmət zonasında manevr etməsinin sürəti saatda 5 km-dən artıq olmamalıdır. XAN və MV perron ərazisində hərəkət sürəti saatda 20 km-dən, aerodromun qalan zonalarında isə saatda 40 km-dən artıq olmamalıdır. Göstərilən məhdudiyyətlər örtüklərin saxlanması və ilişmə əmsalının ölçülməsi işləri aparılarkən aerodrom avtonəqliyyatına, habelə uçuş rəhbərinin avtonəqliyyatına, HG-ni müşayiət edən xüsusi avtonəqliyyata, yanğın və sanitar maşınlarına şamil edilməməlidir.

2.1.30. Təkərləri çirklənmiş XAN və MV, habelə traktorların və tırtırlı mexanizmlərin süni örtüklü aerodrom səthlərində hərəkəti qadağandır.

2.1.31. Aerodromda məhdud görünüş şəraitində hərəkət zamanı XAN və MV səs siqnallarından istifadəyə icazə verilir. İstifadə olunan treylerlərin banının arxa və yan hissələrində qırmızı işıq əksetdiriciləri (katafortlar) olmalıdır.

2.1.32. Məhdud görünüşlə əlaqədar prosedurlar tətbiq olunduqda perronda işləyən insanlar və nəqliyyat vasitələrinin sayı lazımı minimumla məhdudlaşdırılmalıdır.

Qeyd: *Müvafiq xüsusi prosedurlara dair təlimat materialları İCAO-nun "Yerüstü xidmətin idarəetmə sistemi və ona nəzarət üzrə Təlimat"da (SMGCS) verilmişdir.*

2.2. HAVA GƏMİLƏRİNİN YEDƏKLƏNMƏSİNİN TƏŞKİLİ

2.2.1. Hava gəmiləri hava limanında xidmət göstərən təşkilatların qoyduğu tələblərə uyğun olaraq məsul şəxslərin rəhbərliyi altında, XAMVT-nin tələbləri və HG-nin uçuş istismarı üzrə Təlimat rəhbər tutulmaqla yedəklənməlidir.

2.2.2. Hava gəmisi yalnız hərəkət xidməti dispetçerinin icazəsilə yedəklənir. Yedəkləyənin radiostansiyası bütün yedəkləmə ərzində mütləq işlək vəziyyətdə olmalıdır. HG-nin hərəkəti zamanı yedəkləməyə məsul olan şəxs yedəklənən HG-nin növü üzrə tələbləri, HG-nin və XAN və MV-nin aerodromda hərəkət sxemini rəhbər tutmalıdır.

2.2.3. Yedəkləməyə yalnız xüsusi icazəsi olan sürücülər təyin olunmalıdır.

2.2.4. HG-lərini yalnız asfalt və beton örtük üzərində yedəklənməsinə icazə verilir. Yedəkdə hərəkət sürəti həmin HG növünə uyğun olaraq yedəkləmə üzrə təlimatla müəyyən olunur. Günün qaranlıq vaxtlarında yedəklənmə HG-nin işıqlarını yandıraraq aşağı sürətlə, ehtiyat tədbiri görülməsi şərtilə yerinə yetirilməlidir.

2.2.5. HG-nin yedəklənməsi üçün HG ilə radioəlaqə vasitələri quraşdırılmalı, günün hər hansı vaxtından asılı olmayaraq yedəklənmə zamanı qabarit və bərqvuran işıqlar yandırılmalı, həmçinin xüsusi yedəkləmə qurğuları ilə təchiz olunmuş dartıcılardan istifadə edilməlidir.

2.2.6. Yedəklənmədən əvvəl yedəkləməyə rəhbərlik edən şəxs yedəkçi sürücünü yedəkləmənin həyata keçirilməsi xüsusiyyətləri barədə təlimatlandırmalıdır.

2.2.7. HG-nin yedəklənməsinə məsul olan şəxs yedəkləmə iştirakçılarının hamısının hərəkətlərinə rəhbərlik etməlidir.

2.3. TEXNIKI VƏ KOMMERSIYA XIDMƏTLƏRI GÖSTƏRILƏRKƏN XAN VƏ MV-NIN HAVA GƏMILƏRINƏ YAXINLAŞMASI (UZAQLAŞMASI) İŞLƏRININ TƏŞKILI VƏ QAYDALARI

2.3.1. XAN və MV hava gəmilərinə xidmət üçün yaxınlaşması müvafiq texnoloji qrafik əsasında həyata keçirilməlidir.

2.3.2. HG-nə xidmət işlərinə rəhbərlik HG-nə həmin hava limanında xidmət texnologiyasında nəzərdə tutulan məsul şəxs tərəfindən həyata keçirilməlidir.

2.3.3. XAN və MV hava gəmisinə yaxınlaşması, uzaqlaşması və işlək vəziyyətinə gətirilməsi HG-nə xidmət zamanı XAN və MV-lərin yaxınlaşması, uzaqlaşması və manevretmə sxemlərinə (Əlavə 10) uyğun olaraq məsul şəxslərin rəhbərliyi altında (Əlavə 5) həyata keçirilməlidir.

2.3.4. İdarəetmə kabinəsi sol tərəfdə yerləşən yanacaqdolduran avtomobillərə Əlavə 10-da göstərilən sxemlərə uyğun olaraq sağ qanadın axırından qanad boyu hava gəmisinin füzelyajı istiqamətində qanad boyu hava gəmisinə yaxınlaşma (uzaqlaşma) icazəsi verilməlidir. Bu zaman yanacaqdolduranın yerləşmə yeri sxemlərdə dəyişməz olaraq qalmalıdır və hava gəmisinin qabaq sağ qapısı bağlı olmaqla heç bir XAN və MV həmin ərazidə dayanmamalıdır.

2.3.5. Hava gəmilərinin hər iki qanadından yanacaq doldurmaq mümkün olduqda üstünlük sol qanaddan yanacaq doldurmağa verilir (trap olmadığı halda).

2.3.6. Yanacağın doldurulması sərnişinlərin HG minən, HG-də olan və HG-dən düşən zaman baş verərsə, aşağıda qeyd edilənlər hazır vəziyyətdə olmalıdır:

(a) təxirəsalınmaz təxliyə məqsədilə kifayət qədər çıxışlardan istifadə edilməsi;

(b) qəza vəziyyətində istifadə edilməli olan hər bir çıxışdan cəld təxliyənin (ready escape route) həyata keçirilməsi;

(c) yanğınsöndürən avtomobilin dayanacaqda olması.

2.3.7. XAN və MV HG-nə yaxınlaşarkən ona zədə vurmamaq üçün dayanacağı minimum məsafə:

- 5.0 m – yanacaqdolduranlar, səyyar yanacaq aqreqatları və yağdolduranlar;
- 3.0 m – mühərrik qızdırıcıları, hava startyoru, hava kondisioneri, hava qızdırıcısı, baqaj traktoru, mobil yer üstü elektrik qida mənbəyi;
- 0,1 m – yükdoldurma-yükboşaltma əməliyyatlarında HG yaxınlaşan amortizasiya qurğuları ilə təchiz olunmuş XAN və MV;
- 0.05 m – HG-lərə amortizasiya qurğuları ilə təchiz olunmuş aşağı sürətlə yaxınlaşan sərnişin trapı;
- 0,5 m – Digər XAN və MV;
- Əlavə 10-da 9.1 və 10.1 sxemlərində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla, aviaşirkətlərin razılığı olduğu halda baqaj arabaları qoşulmuş baqaj traktorlarının A319 və A320 tip hava gəmilərinin qanadının altına yalnız konteyner yüklənib-boşaldılması zamanı girməsinə yaxınlaşmaya (uzaqlaşmaya) rəhbərlik edən vəzifəli şəxslərin (supervayzerlərin) xüsusi nəzarəti və yüksək təhlükəsizlik tədbirlərinə əməl etməklə istisna hal kimi icazə verilir.

2.3.8. HG-lərə xidmət zonasında iş zamanı XAN və MV sürücüləri:

- XAN və MV-nin sürücüləri xidmət zonasına yaxınlaşarkən XAN və MV-nin dayanması üçün nəzərdə tutulan yerlərdə, hava gəmisinin son nöqtələrindən azı 10 m. uzaqlıqda dayanmalıdır;
- yalnız yaxınlaşmaya rəhbərlik edən şəxsin icazəsi ilə xidmət zonasına daxil olmalıdır;
- yaxınlaşmaya rəhbərlik edən şəxsin göstərişlərinə dəqiq əməl etməlidir;
- XAN və MV-nin sürücüsü HG-nə yaxınlaşarkən XAN və MV növünə görə təyin olunmuş təhlükəsiz məsafədə saxlanmasını təmin etməlidir;
- yaxınlaşmaya rəhbərlik edən şəxsin, HG heyəti üzvünün ilk tələbi ilə XAN və MV saxlamalı və xidmət zonasından çıxarmalıdır;
- XAN və MV sıradan çıxdıqda onun xidmət zonasından, dayanacaqdan və perrondan dərhal çıxarılması üçün tədbir görməli, sonra hadisə haqqında birbaşa rəhbərinə və ya xidmət dispetçerinə məlumat verməlidir;
- XAN və MV aerodromda idarə etmək və hava gəmilərinə xidmət etmək hüququ barədə talona malik olmalı (Əlavə 3) və onu aerodromda hərəkətin təhlükəsizliyinin təşkili üçün məsul olan şəxslərə təqdim etməlidir.
- Kabelləri, şlanqları, yerləndirmə troslarını hava gəmisindən ayırmadan XAN və MV-ni hərəkətə gətirmək və manevr etmək qəti qadağandır.

2.3.9. XAN və MV HG-nə yaxınlaşmasına rəhbərlik edən şəxslər:

- Hava Gəmilərinə xidmət zamanı bu Tələbin 9-cu Əlavəsində müəyyən edilmiş siqnalların köməyi ilə XAN və MV-lərin yaxınlaşması, uzaqlaşması və manevretmə sxemlərinə (Əlavə 10) uyğun olaraq rəhbərlik etməlidir;
- XAN və MV hava gəmisinə tərəf hərəkətinə nəzarət edərək və sürücü ilə vizual əlaqə saxlayaraq XAN və MV yaxınlaşmasına rəhbərlik etməlidir;

- Sürücüyə siqnal verməzdən əvvəl əmin olmalıdır ki, XAN və MV HG yanında manevr etməsi üçün, habelə banın və ya işçi orqanın qaldırılması (endirilməsi) üçün heç bir maneə yoxdur;
- XAN və MV HG-nə yaxınlaşarkən onu zədələməmək üçün təyin olunmuş təhlükəsiz məsafədə saxlanmasını təmin etməlidir;
- XAN və MV HG-dən təhlükəsiz məsafədə dayandıqdan sonra XAN və MV-nin HG-nə hərəkəti tərəfində təkərin altına dayaq kötüyü qoyduqdan sonra əks tərəfdən təkərin altına digər kötüyü qoymalıdır (dayaq kötükləri əvvəlcədən XAN və MV-də olmalıdır);
- İş qurtardıqdan sonra hava gəmisindən kabellərin, sökülüb açılan hissələrin, şlanqların və yerləndirmə troslarının çıxarılmasını yoxlamalıdır;
- XAN və MV yola düşdüyü tərəfdən kötüyü götürməli və «Get» siqnalını verməli, HG-dən 5 metr aralandıqdan sonra isə ikinci kötüyü götürməlidir (dayaq kötüklərini XAN və MV-də yerləşdirilməlidir);
- XAN və MV HG-nə yaxınlaşmasına rəhbərlik hüququnu təsdiq edən vəsiqəyə malik olmalı və onu təqdim etməlidir (Əlavə 5).

2.3.10. XAN və MV yaxınlaşmasına, uzaqlaşmasına və hərəkətinə rəhbərlik edən şəxs XAN və MV işini bitirənədək hava gəmisinə xidmət göstərilən ərazidə olmalıdır.

2.3.11. XAN və MV HG-nin zədələnməsi təhlükəsini yaradan qeyri düzgün manevr etdikdə, yaxınlaşma rəhbəri əvvəlcə «Dayan» siqnalı verməli, sonra isə hava gəmisinə zədə vurulmasını istisna edən manevrin həyata keçirilməsinə siqnal, daha sonra isə XAN və MV xidmət zonasından çıxarmaq komandasını verməlidir. XAN və MV xidmət zonasından 2-5 metr aralandıqdan sonra onu saxlamalı və sürücüdən manevrin səhv həyata keçirilməsinin səbəbini soruşmalı, bundan sonra XAN və MV HG-nə yenidən yaxınlaşmasını təmin etməlidir. Yaxınlaşmaya rəhbərlik edən şəxs yaxınlaşmanın təkrarı haqqında birbaşa rəhbərinə məlumat verməlidir.

2.3.12. HG-nə xidmət zonasında yaxınlaşma (uzaqlaşma) və manevr etmə qaydalarının pozulmasına görə aşağıdakılar məsuliyyət daşımalıdırlar:

- yaxınlaşmaya rəhbərlik edən şəxsin siqnallarını düzgün və ya vaxtında yerinə yetirməyən, habelə həmin rəhbərin icazəsi olmadan özbaşına manevr edən XAN və MV sürücüsü;
- yaxınlaşmaya rəhbərlik edən, manevrin həyata keçirilməsi üçün vaxtında və düzgün siqnallar verməyən, habelə dayaq kötüklərini vaxtında və düzgün yerinə qoymayan məsul şəxs.

2.3.13. HG-nə xidmət zonasında iş zamanı sürücülər və ya yaxınlaşmaya rəhbərlik edən şəxslər tərəfindən buraxılan bütün səhvlər haqqında səlahiyyətli şəxslər sürücü talonlarında və ya yaxınlaşmaya rəhbərlik edən şəxslərin vəsiqələrində qeyd aparmalıdırlar.

2.4. AERODROMLAR İSTISMARDA SAXLANARKƏN XAN VƏ MV İŞININ VƏ HƏRƏKƏT TƏHLÜKƏSIZLIYININ TƏŞKILI

2.4.1. Aerodromların istismara yararlı saxlanması işləri aparılarkən Azərbaycanın Aviasiya Qaydaları, AAR-AGA-001, G-AGA-003 və XAMVT-nin tələbləri yerinə yetirilməlidir.

2.4.2. Hava limanı bölmələri aerodromlarda HG-nin uçuşlara hazırlanmasına dair görülən işləri aerodromda uçuşlara rəhbərlik (AUR) edən şəxslərdən icazə almalı və bu işlərin görülməsini aerodrom xidmətinin məsul şəxsi ilə razılaşdırmalıdır.

2.4.3. XAN və MV uçuş zolağına və sürmə yoluna yalnız görülən işlərə cavabdeh olan şəxsin müşayəti ilə AUR-un və "Qüllə" dispetçerinin icazəsi, Aerodrom xidmətinin razılığı ilə çıxarıla bilər.

2.4.4. Uçuş zolağında iş aparılarkən XAN və MV hərəkətinin təşkilini, işlərə rəhbərliyi və onlara nəzarəti iş aparan bölmənin məsul şəxsi təmin etməlidir.

2.4.5. İşin həyata keçirilməsinə məsul şəxs XAN və MV, avadanlığı və işçiləri "Qüllə" dispetçerinin və ya AUR-un göstərişi ilə, lazım gəldikdə isə, müstəqil surətdə uçuş zolağından və sürmə yolundan müəyyən olunmuş yerlərə dərhal uzaqlaşdırılması üçün tədbir görməlidir.

Bütün hallarda uçuş zolağı HG-nin hesablanmış (dəqiqləşdirilmiş) enmə vaxtına azı 5 dəqiqə qalmış boşaldılmalıdır.

2.4.6. Uçuş zolağında və SY-da iş aparılması prosesində məsul şəxs "Qüllə" dispetçeri ilə radioəlaqə saxlamalı və hər 15 dəqiqədən bir radioəlaqəni nəzarətdə saxlayıb yoxlamalıdır.

Radioəlaqə baş tutmadıqda və ya nasazlığa görə sabit işləmədikdə iş aparılmasını dayandırmaq və uçuş zolağından və SY-dan texnika və işçiləri tez bir zamanda təcili çıxarmaq üçün tədbir görülməlidir.

2.4.7. Radioəlaqə kəsiləndə uçuş zolağının və SY-nun boşaldılmasına siqnal UEZ işıqlarının üç dəfə yandırılıb söndürülməsindən (Yüksək intensivli birinci qrup işıq sisteminin və ya aşağı intensivli işıqların birinci dərəcəli parlaqlığında) və ya işləyən texnikaya tərəf iki qırmızı fişəngin buraxılmasından ibarətdir.

2.4.8. İşləyən texnika sıradan çıxdıqda, məsul şəxs dərhal bu haqda "Qüllə" dispetçerinə məlumat verməli və nasaz texnikanın müəyyən olunmuş yerə uzaqlaşdırılması üçün təcili tədbirlər görməlidir.

2.4.9. Uçuş sahəsində iş yerinə yetirildikdən sonra iş aparmış bölmənin məsul şəxsi uçuşların təhlükəsiz yerinə yetirilməsinə heç bir maneə qalmadığına əmin olmalı, texnika və işçiləri çıxarmalı, uçuş rəhbərinə, habelə aerodrom xidmətinin məsul şəxsinə işin qurtarması və uçuş sahəsinin boşaldılması haqqında məlumat verməlidir.

2.4.10. Aerodrom xidmətinin məsul şəxsi işin qurtarılması haqqında məlumat aldıqda uçuş sahəsinin vəziyyətini yoxlamalı, onun hazırlığına əmin olmalı və bu haqda uçuşların rəhbərinə məlumat verməlidir.

2.4.11. Uçuş zolağında və SY-da olarkən bütün XAN və MV günün hər hansı vaxtından asılı olmayaraq qabarit və bərqvuran işıqları yandırmalı, habelə uçuşların rəhbəri ("Qüllə" dispetçeri) ilə hava limanı daxili rabitə vasitələrinin qoşulu vəziyyətində işləməlidir.

2.4.12. Radiorabitə və işıq-siqnal vasitələri, yedək qurğuları, yanğınsöndürmə vasitələri ilə təchiz edilməmiş (nasaz) XAN və MV işlərin aparılmasına, məsul şəxsin müşayiəti və uçuş rəhbərinin icazəsi olmadan uçuş zolağına və sürmə yoluna çıxması qadağandır.

2.4.13. Uçuş zolağında və SY-da iş zamanı XAN və MV quraşdırılmış radiorabitə vasitələrini, qabarit və bərqvuran işıqları söndürmək qadağandır.

2.4.14. Radiorabitə vasitələri ilə təchiz edilmiş XAN və MV sürücülərinə hava limanı daxili radiorabitə qaydaları öyrədilməlidir. Xidmətlərin vəzifəli şəxsləri ilə uçuş rəhbərləri arasında radiotelefon məlumat mübadiləsi səsyazma aparatlarına yazılmalıdır.

2.4.15. Uçuş zolağında və SY-da iş zamanı XAN və MV sürücüləri səs və işıq siqnallarını, radio ilə verilən komandaları daim izləməlidirlər.

2.4.16. Uçuş zolağında işləyən sürücülər rabitə kanalı ilə və ya müəyyən edilmiş siqnal üzrə müvafiq komanda aldıqda işi dayandırmalı və ləngimədən texnikanı müəyyən olunmuş yerə aparmalıdır.

2.5. UÇUŞ-ENMƏ ZOLAĞINI KEÇMƏ QAYDALARI

2.5.1. Uçuş-enmə zolağını keçməzdən əvvəl XAN və MV sürücüsü (xidmət nümayəndəsi) uçuş-enmə zolağındakı gözləmə yerinin işarəsinə çatmadan sürmə yolunda dayanmalı, olduğu yeri və XAN-ın sayını “Qüllə” dispetçerinə deyərək uçuş-enmə zolağını keçməyə görə icazə almalıdır.

2.5.2. Aerodrom xidməti, UEİTT xidməti, “Azəraeronaviqasiya” HHİ və hava gəmilərini müşayiət edən avtonəqliyyata UEZ-i keçməyə müstəsna hallarda və yalnız zərurət olduqda icazə verilir.

2.5.3. Uçuş zolağına və SY-na çıxmağa və keçməyə yalnız “Qüllə” dispetçerinin icazəsi ilə yol verilməlidir.

2.5.4. Uçuş-enmə zolağını keçdikdən sonra sürücü (xidmət nümayəndəsi) onun boşaldılması haqqında “Qüllə” dispetçerinə mütləq məlumat verməlidir.

2.5.5. XAN və MV uçuş-enmə zolağındakı gözləmə yerinin işarəsini keçdikdən və “Qüllə” dispetçerinə məlumat verdikdən sonra uçuş-enmə zolağı boşaldılmış sayılır.

2.6. SÜRÜCÜLƏRIN, HABELƏ XÜSUSI MAŞINLARIN HAVA GƏMILƏRINƏ YAXINLAŞMASINA RƏHBƏRLIK EDƏN ŞƏXSLƏRIN AERODROMDA İŞƏ BURAXILMASI

2.6.1. Sürücülər aerodromda yalnız müvafiq avtonəqliyyat növlərini, onların avadanlığının istehsalçı zavodların təlimatlarında göstərilən istismar xüsusiyyətlərini, Azərbaycan Respublikasında uçuşları təmin edən bölmələrin qarşılıqlı fəaliyyəti texnologiyasına dair tələbləri, avtonəqliyyatın istismarı və təmiri zamanı əməyin təhlükəsizliyi tələblərini, aerodromda müəyyən edilmiş hərəkət qaydalarını, XAN və MV hava gəmisinə yaxınlaşması və ondan uzaqlaşması qaydalarını və XAMVT-nin bütün tələblərini öyrəndikdən sonra işə buraxılmalıdır.

2.6.2. Hər bir sürücü aerodromda müstəqil işə başlamazdan əvvəl hava limanı üzrə əmrlə təyin olunmuş təcrübəli sürücülərin rəhbərliyi altında təcrübə keçməlidir.

2.6.3. Təcrübə keçmə prosesində sürücülər aerodromda avtonəqliyyatı idarə etməkdə və müəyyən XAN və MV növlərində texnoloji əməliyyatları yerinə yetirməkdə əməli vərdişlərə, radiostansiyadan və İCAO əlifbası (Əlavə 11) daxil olmaqla radiomübadilə frazeologiyasından istifadə qaydalarına əməli surətdə yiyələnməlidirlər.

2.6.4. Hava gəmilərinə xidmət üzrə XAN və MV sürücüləri XAN və MV hər növündə hava gəmilərinə xidmət üzrə bütün texnoloji əməliyyatları mütləq yerinə yetirməklə səkkiz iş növbəsindən (56 saatdan az olmamaqla) az olmayan həcmdə təcrübə keçməlidir. Hava gəmilərinə yaxınlaşma və onlardan uzaqlaşma vərdişlərinə yiyələnmək üçün əvvəlcə hava gəmisi konstruksiyasının daha çox zədələnməyə məruz qalan zonalarını təsvir edən maketlər qoyulmuş xüsusi meydançalardan istifadə etmək tövsiyə olunur.

2.6.5. Xüsusi aerodrom avtonəqliyyatının sürücüləri hər XAN və MV növündə aerodromu istismar vəziyyətində saxlamaq üzrə bütün texnoloji əməliyyatlar silsiləsini mütləq yerinə yetirməklə səkkiz iş növbəsindən az olmayan həcmdə təcrübə keçməlidirlər.

2.6.6. HG-lərinə yaxınlaşmaq və aerodromu istismarda saxlamaq işlərini yerinə yetirmək hüququ olmadan aerodromda işləmək üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitələrinin və mexanizmlərin sürücüləri uçuş zolağını nəqliyyat vasitələrinin hər bir növündə keçmək və SY-da hərəkət etmək istisna olmaqla, aerodromun bütün zonalarında mütləq hərəkət etməklə üç iş növbəsindən az olmayan həcmdə təcrübə keçməlidirlər. Təcrübənin ümumi müddəti ştatında sürücülər olan bölmənin rəisi və ya xüsusi nəqliyyat xidmətinin rəisi tərəfindən, sürücülərin peşə səviyyəsi və aerodromda əməli iş vərdişləri nəzərə alınmaqla müəyyən olunmalıdır.

2.6.7. Sürücünün təlim kursları və təcrübə keçməsi haqqında məlumatlar XAN və MV hər növü üçün ayrılıqda aparılan, təlim və təcrübə keçmə prosesində sürücüdə saxlanan, proses başa çatdıqdan sonra isə aerodromda sürücülərin işə buraxılması komissiyasına təqdim olunan xüsusi vərəqə - "XAN və MV sürücüsünün təcrubə keçmə vərəqi" -nə yazılmalıdır (Əlavə 6, 7). Həmin təcrübə vərəqində bütün qeydlər təlim üçün məsul olan şəxslərin və sürücülərin təcrübə keçməsinə rəhbərlik edən şəxslərin imzaları ilə təsdiq edilməlidir.

2.6.8. XAN və MV istismarı üzrə sürücülərin bilikləri və əməli vərdişləri aiddiyyatı bölmələrinin nümayəndələrindən ibarət komissiya tərəfindən yoxlanılmalıdır. Yoxlamanın nəticələri XAN və MV sürücüsünün təcrübə keçmə vərəqinin əlavə olunduğu protokolla rəsmiləşdirilməlidir.

2.6.9. Sürücünün aerodromda müstəqil işə buraxılması peşə komissiyasının protokolu və sürücünün təcrübə keçmə vərəqi əlavə olunmaqla əmrlə rəsmiləşdirilməlidir. Eyni zamanda sürücüyə aerodromda XAN və MV sürmək və HG-lərinə xidmət etmək hüququna dair talon (Əlavə 3) və ya aerodromda hava gəmilərinə yanaşmaq hüququ olmadan avtonəqliyyatı (mexanizmi) sürmək hüququna dair talon (Əlavə 4), habelə radiostansiyadan istifadəyə icazə verilməlidir.

2.6.10. Sürücü XAMVT-nin tələblərini pozduqda onun talonunda yol verilmiş pozuntular haqqında 2.3.8 bəndə əsasən qeyd aparılmalıdır.

2.6.11. Talonlarında pozuntular haqqında üç qeyd olan sürücülər yalnız təkrar təcrübə keçdikdən və XAN və MV istismarı və yol hərəkəti qaydalarını bilməsi haqqında onların bilikləri peşə komissiyası tərəfindən yoxlandıqdan və yeni talon verildikdən sonra işə buraxıla bilər.

2.6.12. Növbədə işə başlamazdan əvvəl sürücülər hava limanının tibbi heyətinin keçirdiyi tibbi müayinədən keçməli, sürücünün yol vərəqəsində və ya tibbi nəzarət kitabçasında işə buraxılmağa dair qeydləri olmalıdır.

Xəstə olduğu və ya spirtli içki içməsi faktı müəyyən olunan sürücülər işə buraxılmamalıdır. Aidiyyatı xidmətin rəhbərinin qərarı ilə sürücülərin növbənin axırında mütləq əlavə tibbi müayinədən keçməsi tətbiq edilə bilər.

2.6.13. Hava limanının bütün sürücüləri qüvvədə olan normativ sənədlərə əsasən tibbi müayinədən keçməlidir. Sürücülərin tibbi müayinəyə gəlməsini aid olduğu bölmələrinin rəhbərləri təmin etməlidir.

2.6.14. İldə iki dəfədən az olmayaraq (payız-qış və yaz-yay naviqasiyalarından əvvəl) XAN və MV istismarı ilə bağlı olan müvafiq bölmələrdə bölmə rəisinin sədrliyi ilə sürücülərin avtonəqliyyatın material hissələrini, XAMVT-nin tələblərini bilməsini və aerodromda əməli iş vərdişləri yoxlanmalıdır. Aparılmış yoxlamanın nəticələri sürücülərin sonrakı dövr üçün işə buraxılmasına əsas verən protokolla

rəsmiləşdirilməlidir. Qeyri-kafi bilik nümayiş etdirən sürücülərin aerodromda işə buraxılması qadağandır.

Qeyri-kafi bilik nümayiş etdirən sürücülər yenidən vahid peşə komissiyasına imtahana göndərilməli, yalnız kafi qiymət aldıqdan sonra işə buraxıla bilər.

2.6.15. XAN və MV HG-lərinə yaxınlaşmasına (uzaqlaşmasına) rəhbərlik edən məsul şəxslər müstəqil işə başlamazdan əvvəl XAMVT-nin, uçuşları təmin edən xidmətlərin qarşılıqlı fəaliyyət texnologiyasının tələblərini, müxtəlif növlü təyyarələrə XAN və MV yaxınlaşması (uzaqlaşması) sxemlərini öyrənmə məşğələlərini, habelə əməli vərdişlərə yiyələnmək üçün təcrübə keçməlidir. HG-lərə XAN və MV yaxınlaşmasına rəhbərlik edənlərin öz vəzifələrini bilməsi və yiyələndikləri vərdişlərin səviyyəsi hava limanının komissiyası tərəfindən yoxlanılmalıdır. Komissiyanın işinin nəticələri protokolla rəsmiləşdirilməlidir.

XAN və MV HG-lərə yaxınlaşmasına (uzaqlaşmasına) rəhbərlik edən məsul şəxslərin işə buraxılması, onlara HG-lərinə XAN və MV yaxınlaşması (uzaqlaşması) işlərinə rəhbərlik etmək hüququna dair vəsiqənin verilməsi ilə bərabər müvafiq təşkilatın əmrilə rəsmiləşdirilməlidir.

2.6.16. HG-lərə XAN və MV yaxınlaşmasına rəhbərlik edən məsul şəxslər XAMVT-nin tələblərini pozduqda 2.3.13 bəndinə uyğun olaraq vəsiqələrində qeydlər aparılmalıdır.

Yaxınlaşmaya rəhbərlik hüququna dair vəsiqəsində pozuntular haqqında üç qeyd olan məsul şəxslər yalnız yaxınlaşma və uzuqlaşmaya rəhbərlik üzrə bilik və əməli vərdişləri komissiya tərəfindən yoxlanıldıqdan sonra yeni vəsiqə verilməklə işə buraxılmalıdır.

2.6.17. Yaxınlaşmaya rəhbərlik edən vəzifəli şəxslər növbədə işə başlamazdan əvvəl tibbi müayinədən keçməli və işə buraxılmağa icazə almalıdır.

2.7. XÜSUSI AVTONƏQLIYYATIN AERODROMA BURAXILMASI

2.7.1. Aerodroma və onun hüdudlarından kənarda istismara buraxılan bütün növlərdən olan avtomobillər dövlət yol polisi (DYP) orqanlarında qeydiyyata alınmalı və dövlət qeydiyyat nişanlarına, qaraj nömrələrinə, pasporta və formulyarlara malik olmalıdırlar.

Hava limanının hüdudlarından kənarda işləyən traktorlar və özüyeriyən mexanizmlər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən dövlət qeydiyyatında olmalı və müəyyən edilmiş nümunə üzrə qeydiyyat nömrələrinə malik olmalıdırlar.

Avtokranlar və pnevmotəkərli kranlar, avtoqüllə və avtoqaldırıcılar Fövqəladə Hallar Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmalıdır.

2.7.2. Yalnız aerodromun ərazisində istismara buraxılan və DYP orqanlarında qeydiyyata götürülməyən mexaniki nəqliyyat vasitələri (traktorlar, buldozerlər, avtoqreyderlər və digər mexanizmlər) qaraj nömrələrinə, pasportlara və formulyarlara malik olmalıdır.

DYP-də qeydiyyatda olmayan və mülki aviasiya və digər müəssisələrdə qeydə alınmayan avtomobil və mexanizmlərin istismarı qadağandır.

2.7.3. XAN və MV texniki vəziyyəti istehsalçı zavodların təlimatlarının tələblərinə və Dövlət standartına (DST) uyğun gəlməlidir. Texniki cəhətdən nasaz, xarici görünüşü qeyri kafi olan XAN və MV aerodroma buraxılması qadağandır.

2.7.4. HG-lərə xidmət üçün XAN və MV-də radiorabitə vasitələri və dayaq kötükləri dəsti, yükvurma -yükboşaltma avtomobilləri, traplar, yük avtomobillərində isə əlavə olaraq amortizasiya vasitələri olmalıdır.

2.7.5. XAN və MV rəngi AAR-AGA-001-in tələblərinə uyğun olmalıdır.

2.7.6. Xəttə buraxılmazdan əvvəl hər bir XAN və MV texniki vəziyyəti və radiostansiyanın işəyararlığı mexanik tərəfindən yoxlanılmalıdır və onun imzası ilə yol vərəqində bu barədə qeyd aparılmalıdır. XAN və MV bir növbə tərəfindən digər növbəyə əməliyyat dayanacağında verilməlidir. İş aparılması üçün lazım gəldikdə XAN və MV HG yanında bir növbədən digərinə keçirilməsinə istisna hallarda yol verilə bilər.

2.7.7. Hər növlü və təyinatlı XAN və MV, o cümlədən sərnişinləri HG-nə çatdıran avtobuslar aerodromun ərazisinə yalnız buraxılış vərəqəsi ilə buraxılmalıdır (Əlavə 1).

2.7.8. Şəxsi nəqliyyatda aerodrom ərazisinə girmək qadağandır.

2.8. KƏNAR TƏŞKILATLARA MƏXSUS XAN VƏ MV-NIN AERODROMA BURAXILMASI VƏ İŞININ TƏŞKILI

2.8.1. Kənar təşkilatlara məxsus XAN və MV-nin aerodroma yalnız hava limanı rəhbərinin icazəsi ilə buraxıla bilər.

2.8.2. Kənar təşkilatlara məxsus XAN və MV-nin aerodroma keçməsinə işlərin aparılmasına məsul olan xidmətlərin sifarişi ilə verilən və aerodroma girərkən nəzarət-buraxılış məntəqəsində (NBM) verilən və çıxarkən geri alınan birdəfəlik buraxılış vərəqələri ilə icazə verilə bilər.

2.8.3. Kənar təşkilatlara məxsus XAN və MV aerodrom ərazisində təsdiq edilmiş hərəkət sxeminə uyğun və kənar təşkilatın işinə nəzarət edən məsul şəxsin müşayiəti ilə hərəkət etməlidirlər.

2.8.4. Kənar təşkilatlara məxsus XAN və MV NBM-də qarşılanmasını, iş yerinə və geriyə müşayiətini, habelə onlara iş prosesində nəzarət aparılmasına məsul olan xidmətlərin rəisləri təmin etməlidir.

